Mənim bu məscidimdə qılınan bir namaz, Məscidul-Haram istisna olmaqla, başqa məscidlərdə qılınan min namazdan daha xeyirlidir

Əbu Hureyradan (Allah ondan razı olsun) rəvayət edildiyinə görə Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) belə buyurmuşdur: «Mənim bu məscidimdə qılınan bir namaz, Məscidul-Haram istisna olmaqla, başqa məscidlərdə qılınan min namazdan daha xeyirlidir».

[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) öz məscidində qılınan namazın fəziləti haqqında Məkkədəki Məscidul-Haram xaric, yer üzündəki digər məscidlərdə qılınan min namazdan daha xeyirli olduğunu bəyan etmişdir. Məscidul-Haramda qılınan namaz, Məscidun-Nəbəvidə qılınan namazdan daha fəzilətlidir.

http://www.sunnah.global/hadeeth/az/show/65090